# Biz haqlıyıq, biz zəfər çalacağıq!

**30 ildən artıq idi ki, Ermənistan Azərbaycana qarşı etnik təmizləmə, soyqırımı və dövlət terrorizmi siyasəti aparırdı. Beynəlxalq aləm isə bütün bunları sadəcə olaraq müşahidə edirdi. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrdə Azərbaycanın ərazi bütövlüyünün bərpası, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi vurğulansa da, işğalçı qüvvələrin ölkəmizin ərazilərindən dərhal və qeyd-şərtsiz çıxması tələb olunsa da, Ermənistan işğalçılıq siyasətindən geri çəkilmədi. Sadalanan qətnamələr yerinə yetirilmədi. Bir sözlə, beynəlxalq qurumlar problemin həllinə laqeydlik, biganəlik göstərdi. Prezident İlham Əliyev isə münaqişənin qan tökülmədən sülh yolu ilə həll olunması üçün əlindən gələni etsə də, erməni tərəfi əməlindən əl çəkməyərək "yeni torpaqlar uğrunda yeni müharibə" fikrinə düşdü.**

Belə bir cəzasızlıq şəraitində bu il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən, ağır artilleriyadan yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutdu. Azərbaycan Ordusu bu hərbi təcavüzə cavab olaraq Ermənistanın işğalı altındakı torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatına başladı. Xalqımız bütünlüklə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ətrafında səfərbər oldu.

Ermənistanın hərbi təcavüzünün əvəzinə daha da azğınlaşır, Azərbaycanın mülki əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələrini, təhsil, sosial, mədəni və strateji əhəmiyyətli obyektləri ağır artilleriya qurğularından, uzaqmənzilli raketlərdən və qadağan olunmuş mərmilərdən istifadə edilməklə intensiv şəkildə atəşə tutur. Nəticədə mülki əhali arasında çoxsaylı ölüm və yaralanma halları baş verir, yaşayış məntəqələrinə, tarixi və mədəni abidələrə, inzibati binalara, ictimai və digər sosial obyektlərə ciddi ziyan dəyir.

texnikası qalıbdır. Hələ də həm işğal edilmiş torpaqlarda, eyni zamanda, Ermənistan ərazisində. Sual olunur, kim onları silahlandırır?".

Azərbaycan Prezidenti bəyan edib ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin terrorçu və faşist mahiyyəti dəyişməz olaraq qalır, bunu hər kəs və bütün dünya bilməlidir. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan dövləti ATƏT-in Minsk qrupundan təcavüzkarla təcavüzə məruz qalanın adını çəkməyi, o cümlədən daha ciddi, konkret və məqsədə ünvanlanmış bəyanatlar gözləyir. Azərbaycanın mövqeyində hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz, çünki biz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanırıq. "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.




## Azərbaycana əbədi zəfər qazandıran Ali Baş Komandan İlham Əliyev

### *Ordumuzun qazandığı qələbələr dövlət başçısının bütün sahələrdə apardığı məqsədyönlü fəaliyyətin nəticəsidir*

Həmin vaxtdan etibarən Azərbaycan ərazilərinin azad olunması uğrunda gedən döyüşlərdə qüdrətli ordumuz tərəfindən şanlı tarix yazılıb, düşmənə sarsıdıcı zərbələr endirilərək, əsas strateji əhəmiyyətli mövqelər, Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri, Cəbrayıl rayonunun bir çox kəndləri və Cəbrayıl şəhəri, Hadrut qəsəbəsi, Zəngilan şəhəri, həmçinin bir çox digər yaşayış məntəqələri düşmən tapdağından azad edilib. Cəbrayıl rayonunun ərazisində yerləşən Xudafərin körpüsünün üzərində 27 il sonra Azərbaycan bayrağı ucaldılıb. Bununla da parlaq qələbələrə imza atan rəşadətli Azərbaycan Ordusu bu dəyərli abidəni özümüzə, əsl sahibinə qaytarıb. Bu uğurlu əməliyyatlar insanlarımızda böyük inam və ruh yüksəkliyi yaradıb, xalqımızın möhtərəm Prezidentimizə, Ali Baş Komandanımıza inam və etimadını daha da gücləndirib.

Beləliklə, bu gün Azərbaycan əks-hücum əməliyyatları həyata keçirərək, işğal altındakı ərazilərimizi bir-birinin ardınca düşməndən təmizləyir. Hərbi baxımdan məğlub duruma düşdüyünü dərk edən Ermənistan rəhbərliyi isə təslim olmaq insan təlafatı ilə nəticələndiyi, ölən və yaralananlar arasında uşaqların və qadınların sayının çox olması isə daha çox ciddi narahatlıq doğurur.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev sentyabrın 27-dən bu günə qədər Ermənistanın hərbi potensialına sarsıdıcı zərbə vurulduğunu qeyd edərək deyib: "...Biz döyüş meydanında tam üstünlüyü əldə etmişik və demək olar ki, Ermənistanın hərbi-texniki potensialını böyük dərəcədə sıradan çıxara bilmişik. Ancaq sual olunur: bu qədər silah, bu qədər texnika Ermənistanda haradandır? Ermənistanın hərbi büdcəsi bəlli, Ermənistanın dövlət büdcəsi də bəlli. Ermənistan bankrot ölkədir. Bu ölkənin xarici dövlət borcu ölkənin ümumi daxili məhsulunun 60-70 faizini təşkil edir. Bu ölkənin sərbəst valyuta ehtiyatları cəmi 1,5 milyard dollardır, bu da bank rezervləridir. Bu, yəni sərbəst vəsait deyil. Hansı pulla bu silah və texnikanı alır? Təkcə bu günə qədər məhv edilmiş və qənimət kimi götürülmüş texnikanın qiyməti aşağısı 2 milyard dollar səviyyəsindədir. Ancaq hələ də bunların

Dövlətimizin başçısı oktyabrın 20-də xalqa növbəti dəfə müraciətində bildirib ki, ermənilər otuz il ərzində torpaqlarımızı işğal alında saxlayaraq, istismar ediblər, təbii resurslarımızı oğurlayıblar, kəndlərimizi, şəhərlərimizi dağıdıblar. Bu, qarşımızdakı düşmənin vəhşiliyindən xəbər verir. Belə vəziyyət işğal olunan, habelə artıq yağıdan azad edilən torpaqlarda da özünü aydın göstərir. Həmin ərazilərimizdə dağıdılmayan bir bina, bir infrastruktur belə qalmayıb. Hər yer xarabalığa çevrilib, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz dağıdılıb, təhqir edilib: "Onlar hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Onlar hesab edirdilər ki, bu torpaqları əbədi işğal altında saxlayacaqlar. Onlar bizim şəhərlərimizin adlarını dəyişdiriblər, rayonlarımızın sərhədlərini dəyişdiriblər, kəndlərimizin adlarını dəyişdiriblər, bizim torpaqlarımızı erməniləşdirmək istəyiblər, amma buna nail ola bilmədilər, Azərbaycan xalqının iradəsini qıra bilmədilər".

Prezident İlham Əliyevin xalqa müraciətində vurğulandığı kimi, erməni vəhşiliyinin, barbarlığının izləri qalan işğaldan xilas edilən torpaqlarımıza tezliklə böyük qayıdış başlayacaq – məcburi köçkünlər doğma yurd-yuvalarına qayıdacaq, o yerlərdə geniş abadlıq-quruculuq tədbirləri həyata keçiriləcək. Bunun bariz ifadəsini Cocuq Mərcanlının timsalında gördük. Dövlətimizin başçısının qeyd etdiyi kimi: "Bu gün işğalçılardan azad edilmiş bütün torpaqlara Azərbaycan vətəndaşları qayıdacaqlar. O torpaqlarda yaşayacaqlar, sülh, əmin-amanlıq şəraitində yenə də qurub-yaradacaqlar. Necə ki, vaxtilə bizim işğal edilmiş bütün torpaqlarımızda Azərbaycan xalqının mədəni irsi yaradılıbdır. Amma mənfur düşmən bu irsi məhv etmək istəyirdi, bizim məscidlərimizi dağıdırdı. Biz Çocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzərini inşa edəndə və onun açılışında demişdim ki, məscidlərin binalarını onlar dağıda bilərlər, amma bu məscidləri biz öz qəlbimizdə yaşadırıq və gün gələcək bizim dağıdılmış bütün məscidlərimiz bərpa ediləcəkdir, bütün şəhərlərimiz, kəndlərimiz bərpa ediləcəkdir. Biz böyük qayıdışın astanasındayıq və Azərbaycan dövləti əlindən gələni edəcək ki, Azərbaycan vətəndaşları işğal olunmuş və azad edilmiş torpaqlara qayıdaraq rahat yaşasınlar, əmin-amanlıq şəraitində yaşasınlar və bu torpaqlarda həyat canlanacaqdır".

Vətən müharibəsinin başlandığı gündən indiyədək cəbhədə əldə edilən möhtəşəm qələbələr onu göstərir ki, hazırda Azərbaycan Ordusu qarşıya qoyulan bütün tapşırıqları ən yüksək səviyyədə yerinə yetirir. Bu, ölkəmizin siyasi, iqtisadi, diplomatik, sahələrdə əldə etdiyi böyük nailiyyətlərin məntiqi nəticəsidir.

Şiddətli döyüşlərin getdiyi indiki vaxtda respublikamızda hər kəs könüllü olaraq cəbhəyə yollanmaq arzusunda olduğunu bildirir. Belə əhval-ruhiyyə isə xalqımızda, o cümlədən, gənclərimizdə yüksək vətənpərvərlik hisslərinin olması ilə bağlıdır. Amma Ermənistan ordusunda vəziyyət tam fərqlidir. İşğalçı ölkənin polisi hazırda gəncləri zorla, necə deyərlər, sürüyərək hərbi xidmətə göndərməyə çalışır. Ancaq nəinki onlar, hətta döyüş xəttindəki erməni əsgərləri belə baş götürüb qaçır, fərarilik edirlər. Ermənilərin ümidləri terrorçulara, Suriyadan, Livandan və digər ölkələrdən gətirilən muzdlulara qalıb.

Yeri gəlmişkən, burada bir məqama da toxunmaq istərdik. Azərbaycan Ordusunun zəfər yürüşü Ermənistanın onsuz da ciddi böhran vəziyyətində olan iqtisadiyyatında da çox ciddi problemlər yaradıb. Hazırda işğalçı ölkənin iqtisadiyyatı öz dayanıqlılığını itirib, iqtisadi potensial, demək olar ki, tükənmək həddinə düşüb. Ermənistanın borclarının ümumi daxili məhsula nisbəti müharibə şəraitində olduqca kritik rəqəmə yaxınlaşıb.

Bütün bunları bugünkü Ermənistan hökumətinin, şəxsən baş nazir Nikol Paşinyanın öz xalqının ən böyük düşməni olduğundan xəbər verir. Ermənistanın hərbi təcavüzünə qarşı Azərbaycanın haqq mübarizəsi isə qətiyyətlə davam edir. Ölkəmizin bu mübarizədən qalibiyyətlə çıxacağı şübhəsizdir.

Cəbhədəki son uğurlarımız da açıq-aşkar göstərir ki, Azərbaycan Ordusu tərəfindən bütün torpaqlarımız tezliklə erməni işğalından azad ediləcək. Azərbaycan bayrağı Şuşada, Laçında, Xankəndində dalğalanacaq. O günü bütün Azərbaycan xalqı səbirsizliklə gözləyir...

*Vaqif BAYRAMOV, "Xalq qəzeti"*